# Ümummilli lider Heydər Əliyevin 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə dövlətimizin müstəqilliyinin qorunub saxlanılması

1991-ci ilin oktyabrında Azərbaycan tarixində ikinci dəfə müstəqillik qazansa da, həmin dövrdə ölkəmizin belə bir siyasi iradə nümayiş etdirməsi bir sıra xarici dairələr və onların daxildəki əlaltılarını qane etmirdi. Həmin qüvvələrin xaricin dəstəyi ilə fəallaşması və tədricən ölkənin siyasi həyatına müdaxilə etmələri onsuz da ağır olan Azərbaycanda vəziyyəti bir qədər də gərginləşdirirdi. Digər bir tərəfdən Ermənistanın işğalçılıq siyasətinə rəvac verən addımları da getdikcə ölkəni idarəolunmaz vəziyyətə gətirirdi. Həmin dövrdə hakimiyyətdə olan qüvvələrin vəziyyətdən çıxış yolu tapa bilməmələri və idarəçilik bacarıqlarının zəifliyi Azərbaycanı parçalamaq istəyən daxili və xarici qüvvələrin işinə yarayırdı. 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri qanunsuz hərəkətlər, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması, Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdı. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi isə ölkəni tamamilə xaosa sürükləyirdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti yoluna qoymaqdan daha çox, prosesləri gərginləşdirməyə rəvac verirdi. Belə bir vaxtda dövləti məhv olmaqdan xilas etmək üçün ölkə rəhbərliyi xalqın təkidli tələbi ilə həmin dövrdə Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyevi Bakıya dəvət etmək qərarına gəldi. Uzun sürən müzakirələr və xalqın kütləvi şəkildə Heydər Əliyevə göndərdiyi müraciətlərdən sonra ümummilli lider Bakıya qayıdaraq çiyinlərini bir daha ağır yükün altına verdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər və Milli Məclis bu təklifi dəstəklədi. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir. Artıq 27 ildir ki, xalq bu günü böyük bayram əhval-ruhiyyəsi ilə qeyd edir. Heydər Əliyevin Bakıya qayıdışı ilə bütün bu məsələləri, problemləri aradan qaldırmağa təkan verən yeganə amil xalqın inamının özünə qayıdışı oldu. Məhz o inam hər şeyi həll etdi. Həmin dövrdən etibarən Heydər Əliyevin rəhbərliyi ilə ölkədə bütün istiqamətlərdə tənəzzülün qarşısı alındı, Azərbaycanın inkişafını təmin edən böyük addımlar atıldı. Heydər Əliyev qısa bir müddətdə bütün qüvvələri səfərbər edərək Azərbaycanı təhdid edən təhlükələrin aradan qaldırılmasına nail oldu. O dövrdə ümummilli liderin qarşısında duran əsas başlıca məqsədlər məhz bunlar idi. Təsadüfi deyil ki, Azərbaycanın müasir tarixinin başlanğıcı məhz ümummilli lider Heydər Əliyevin möhtəşəm qayıdışından hesablanır. Bunun əyani sübutu kimi ötən 27 il ərzində Heydər Əliyev siyasəti nəticəsində ölkəmizin yüksək inkişaf etdiyini göstərmək olar. Bir qədər də konkretləşdirsək, Heydər Əliyev tarixi qayıdışı ilə Yeni Azərbaycanın qurulmasına nail oldu. Bu gün 27-ci ildönümü qeyd edilən Qurtuluş Günü Azərbaycanın müasir tarixində ən yadda qalan hadisələrdən sayılır. Çünki Qurtuluş Günündən keçən 27 il ərzində Azərbaycan çoxlarının xəyal edə bilməyəcəyi dərəcədə inkişaf edib, dünya birliyinin bir parçasına çevrilib. 1992-ci ildə Heydər Əliyev tərəfindən başlanılan bu siyasət 2003-cü ildən etibarən ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən 17 il ərzində bütün sahələrdə əldə olunan nailiyyətlər, ölkəmizin Cənubi Qafqaz regionunun liderinə çevrilməsi, dünya birliyində söz sahibi olması deyilənləri təsdiqləyir. Dünyanı bürüyən COVID-19 pandemiyası ilə mübarizədə cənab Prezidentin xalqı ilə həmrəy olması ölkə vətəndaşları tərəfindən xüsusi rəğbətlə qarşılanır. Pandemiya dövründə Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri bir çox dövlətlər üçün nümunə ola bilər. Dövlətimiz məhz zəruri iqtisadi və maliyyə imkanlarına arxalanaraq daim ən çətin vaxtlarda xalqın rifahının qorunmasına və özəl sektorun inkişafına öz dəstəyini göstərib və göstərməkdədir. Bu görülən tədbirlər bir daha dövlət-xalq birliyini, xalqın öz rəhbəri ilə həmrəy olduğunu sübut edir. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələri fəth edəcəkdir.



**“Qəbələ”**

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir

(Əvvəli 1-ci səhifədə).

bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur”. İnfeksiyaya yoluxma faktı qeydə alınan ilk gündən Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə yaxından əməkdaşlıq şəraitində əhalinin sağlamlığının qorunması və pandemiyanın daha geniş yayılmasının qarşısının alınması istiqamətində mühüm addımlar atmışdır. Başqa bir məqam isə sosial - iqtisadi sahədə atılan işlərlə bağlıdır. Belə ki, Azərbaycanda xarici mənfi proseslərin milli iqtisadiyyata təsirlərini azaltmaq, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan sahibkarlara və muzdlu işçilərə dəstək vermək, iş yerlərini qorumaq, əhalinin sosial müdafiəsini təmin etmək məqsədilə operativ layihələr həyata keçirilir. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür. Qəbul edilən qərarlar həm hüquqi bazanın yaradılması, həm praktik müstəvidə zəruri işlərin görülməsi, həm də maddi dəstək tədbirlərini əhatə edir. Xəstəxanaların açılışında çıxışı zamanı cənab prezident vurğuladı ki, mənim üçün birmənalı qaydada, tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub. “Koronavirus pandemiyası başlayandan bu günə qədər Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz, insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik”. Pandemiya şəraitində dövlət nə lazimdirsa edir, ölkəmizdə görülən bütün işlər, qəbul edilən qərarlar bir məqsəd daşıyır. Bu vətəndaşlarımızın sağlamlığının maksimum qorunmasıdır. Pandemiya dövründə atılan addımlar bir daha sübut etdi ki, Azərbaycan Prezidenti və dövləti hər zaman vətəndaşının yanındadır. Hər bir vətəndaşın da borcudur ki, dövlət başçısının yanında olsun, verilən tövsiyə və tapşırıqlara əməl etsin. Biz bir xalq olaraq daim Prezidentimizin yanındayıq.

